**HACI QASIMLI,**
*Bakı Dövlət Universitetinin magistrantı,*
*haci_qasimli@list.ru*

# RESPUBLİKANIN KİTABXANA-İNFORMASİYA RESURSLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİ

(M.F.Axundov adına Milli Kitabxananın təcrübəsi əsasında)

**Xülasə:** *Müasir dövrdə respublikada mövcud olan kitabxanaların informasiya resurs kompleksinin müəyyən mərhələlər üzrə, müasir qaydada komplektləşdirilməsi məqalənin əsasını təşkil edir. Tədqiqat obyekti olaraq, M.F.Axundov adına Milli Kitabxanada həyata keçirilən komplektləşdirmə prosesi mərhələli şəkildə, kompleks məzmuna malik, sistemli qaydada və nəzəri şəkildə geniş şərh olunmuşdur. İlk öncə kitabxananın tarixi haqqında qısaca məlumat verilmiş, sonra kitabxanada həyata keçirilən komplektləşdirmə prosesinin mərhələləri izah olunmuş və müasir informasiya kommunikasiya texnologiyaları vasitəsilə avtomatlaşdırma prosesinin həyata keçirilməsi haqqı nda ətraflı məlumat verilmişdir.*
**Açar sözlər:** *kitabxana-informasiya resursları, komplektləşdirmə, kitabxana texnologiyaları, komplektləşdirmənin müasir vəziyyəti*

Cəmiyyətin intellektual inkişaf potensialını müəyyən edən, respublikanın kitabxana arealının inkişaf etməkdə olan informasiya resurs tərkibinin zənginliyinə görə M.F.Axundov adına Milli Kitabxana mühüm əhəmiyyət kəsb edir. Tədqiqat işinin əsas mövzu aspektinə keçməmişdən öncə Milli Kitabxananın tarixi haqqında qısaca məlumat verək. Bildiyimiz kimi kitabxana 1922-ci ildə yaradılmış, rəsmi açılışı isə 1923-cü ilin may ayının 23-də olmuşdur. Kitabxananın yaranması respublika əhalisinə kitabxana xidmətini yaxşılaşdırmaqla yanaşı, kitabxana işinin elmi-metodik mərkəzi kimi respublikada informasiya resurslarının zənginliyinə görə elmi tərəqqinin gələcək inkişafına böyük təkan vermişdir. Kitabxana təsis edilən zaman İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin kitabxanası tərəfindən 5000-ə qədər kitab M.F.Axundov adına Kitabxanaya hədiyyə olaraq verilmişdir. Kitabxana fəaliyyətə başladığı ilk dövrlərdə 20.441 nüsxədən ibarət ümumi sənəd resurslarına malik idi [9, S.98].

Kitabxana yarandığı gündən iki mühüm funksiyanı yerinə yetirməyə başladı və Respublikanın ən böyük kitabxanası kimi dövlət kitabsaxlayıcısı vəzifəsinə əməl etməklə, həm SSRİ Kitab Palatasından, həm də respublika nəşriyyatlarından pulsuz məcburi nüsxələr almağa başladı. 1924-cü ildə Azərbay-

can Dövlət Nəşriyyatının, 1925-ci ildə Azərbaycan Dövlət Kitab Palatasının, 1925-ci ildə "Beynəlxalq kitab" cəmiyyətinin yaradılması respublika kitabxanalarının informasiya resurslarının artmasına əlverişli şərait yaratdı. Təkcə belə bir faktı qeyd etmək lazımdır ki, 1929-cu ilin statistikasına görə ölkəyə daxil olan kitabların ümumi sayı 47.095 nüsxə, göndərilən kitabların sayı isə 52.085 nüsxə olmuşdur. Bütün bunların nəticəsi olaraq arxiv mənbələrinin təhlili nəticəsində müəyyən etmək olur ki, kitabxananın resurs imkanları yerli və xarici nəşrlərlə davamlı olaraq komplektləşdirilərək dinamik şəkildə inkişaf etmişdir. Belə ki, əgər 1927-ci ildə kitabxananın fondunda 5.000 nüsxə, 1930-cu ildə 64.700 nüsxə kitab var idisə, 1940-cı ildə bu rəqəm 674.559 nüsxəyə çatdırılmışdı [4, S.27]. Kitabxananın informasiya resurs bazasının durmadan artması oxucuya xidmət işinin həm kəmiyyət, həm də keyfiyyətcə yaxşılaşmasına səbəb olmuş və oxucu dairəsi xeyli genişlənmişdir. Müxtəlif illər üzrə statistik göstəricilərə nəzər salsaq bunun şahidi olarıq [9, S.99].

**Müxtəlif illər üzrə M.F.Axundov adına Milli Kitabxananın informasiya resurslarının miqdar göstəriciləri**

| İllər | Fonda daxil olan ümumi ədəbiyyatın miqdarı |
|---|---|
| 2003 | 11840 |
| 2004 | 12997 |
| 2005 | 11222 |
| 2006 | 11361 |
| 2007 | 26010 |
| 2008 | 24707 |
| 2009 | 15134 |
| 2010 | 16900 |
| 2011 | 17631 |
| 2012 | 19786 |

Cədvəldən göründüyü kimi illər üzrə artım statistikasında sənədlərin artım dinamikası müşahidə edilir. Məhz bu proses kitabxananın resurs potensialının artımına əsaslı şəkildə nümunə kimi qeyd edilə bilər. Ümumilkdə qeyd edək ki, təxminən 7 milyon nüsxəyə malik olan kitabxana resursu əsasən aşağıdakı düzülüş formalarında yerləşdirilmişdir. Buraya:

- sistemli düzülüş;
- əlifba-xronoloji düzülüş;
- inventar düzülüş;

- format düzülüşü;
- xronoloji düzülüş və s. aid edilir.

Ümumi sənəd kütləsi əsasən Azərbaycan, rus və ingilis dillərində sistemli qaydada düzülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində Latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı Azərbaycan kitabxanalarının, o cümlədən M.F.Axundov adına Milli Kitabxananın latın qrafikalı milli ədəbiyyat resursunun inkişafında və zənginləşməsində əvəzsiz rol oynamışdır. Bu sərəncama müvafiq olaraq 600 addan çox kitab, o cümlədən, "Dünya ədəbiyyatı kitabxanası" seriyasından olan 100 addan artıq nəşrlər çap olunaraq ölkənin müxtəlif kitabxanalarına təmənnasız olaraq göndərilmişdir [9, S.101].

Müasir dövrün əsas ünsürü hesab edilən avtomatlaşdırma prosesi ilə əlaqədar olaraq, 2003-cü ildən kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır. Sistemin proqram təminatı ABŞ-ın VTLS-kitabxanalar üçün xüsusi avtomatlaşdırılmış proqramlar işləyən təşkilatlar tərəfindən həyata keçirilmişdir. Bura elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, ümumi sənəd resurslarının komplektləşdirilməsi, Milli biblioqrafiyanın yaradılması, bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir. Bu proqram elektron kataloqun tərtibindən ümumi sənəd resurslarının komplektləşdirilməsindən elektron kataloqun yaradılmasına qədər bütün prosesləri avtomatlaşdırır [8, S.172].

Mövzumuzun əsas tədqiqat obyekti olaraq, kitabxana resursunun repertuarı, kitabxana informasiya resurslarının komplektləşdirilməsinin müasir vəziyyəti, məlumat xidmətinin təşkili və kitabxana siyasətinin həyata keçirilməsi prosesində demokratikliyin gözlənilməsi müasir mədəni cəmiyyətin vacib tələblərindəndir. Bunun üçün əsas faktorlardan biri kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana binalarının əsaslı təmir edilməsi, xarici dillərdə olan ədəbiyyatla komplektləşdirilməsi, kitabxanaların müasir texniki vasitələr və nformasiya texnologiyaları ilə təmin olunmasıdır. M.F.Axundov adına Milli Kitabxananın komplektləşdirmə mənbələri aşağıdakılardır:

- Respublika nəşriyyatları - (Məcburi nüsxələr);
- Ölkədaxili kitab mübadiləsi;
- Beynəlxalq kitab mübadiləsi;
- Respublika kitab mağazaları;
- Ali Attestasiya Komissiyası;
- Heydər Əliyev Fondu;
- Abunə yolu ilə;
- Hədiyyə edilən kitablar vasitəsilə;

- Müxtəlif səfirliklər, beynəlxalq təşkilatlar, elmi-tədqiqat institutları vasitəsilə və s.

Nəzəri cəhətdən onu qeyd etməliyik ki, kitabxana resurslarının komplektləşdirməsi: ümumi yaradılma və kitabxananın iş məsələlərinə abunəçilərin maraqlarına cavab verən sənədlərlə kitabxana fondunun daimi yenilənməsi, həmçinin, praktik olaraq kitabxanaların iş prosesinin müəyyən edilməsi və bütün kitabxana işini kompleks şəkildə öyrənilməsidir. Komplektləşdirmə prosesi ona yönəldilmişdir ki, fondun modellərinə uyğun olaraq bütün lazımlı sənədləri yığmaq və kitabxana fondunu formalaşdırmaq. Kitabxana fondunun tərkibi komplektləşdirmənin prosesinin son nəticəsidir, hansı ki, bu proses verilmiş profilə və lazımlı bütövlüyün səviyyəsinə uyğundur. Ancaq komplektləşdirmə – yalnız sənədlərin toplanması deyil, həm də fondun daimi yeniləməsi – yeni sənədlərlə təchiz edilməsidir. Nəticədə kitabxana resursları yenilənir və onun tərkibi aktual irəliləyən sorğulara əsaslanır.

Ümumilkdə komplektləşdirmənin metodikası: nəzəriyyə və sistemli yanaşma prinsipinə əsaslanır. Abunəçilər tərəfindən istifadəsinin intensivliyi nə qədər yuxarı olarsa o qədər də, kitabxana resursu daha qiymətli və səmərəli ola bilər. Komplektləşdirmənin ümumi metodikası texnologiyanın prosesinin ikili xarakterini nəzərə alaraq bir sıra ardıcıl spesifik əməliyyatlardan ibarətdir. Bu əməliyyatlar fondun təchiz edilməsini təmin edənlərə və onun təmizlənməsinə həmçinin, komplektləşdirməyə bölünür. Bunlar aşağıdakılardır:

1. Kitabxana fondunda sənədlərin ilkin seçilməsi üçün xarici informasiya axınlarının öyrənilməsi. Sənədlərin yayılmasının əsasında onun müəssisələrinin sisteminin ətraflı şəkildə öyrənilməsi;
2. Sənədlərin ilkin seçməsi – yəni sənədlərin əldə edilməsi üçün lazım olanların xarici axınında ilkin olaraq seçmə;
3. Əldə etmə üçün alınmış sənədlərin ilkin sifarişi;
4. Sənədlərlə kitabxanaların təchizatının sistemindən istifadə;
5. Fondun cari komplektləşdirməsinin kontrolu. Yeni daxil olmaların qəbulu.

Fondun təmizlənməsini təmin edən əməliyyatlar bilavasitə onda boşluqların aradan qaldırılmasını təmin edir. Bunlara:

6. Boşluqların (boşluqlar) üzə çıxardılması üçün kitabxananın fondunun öyrənilməsi və istifadə olunmayanlar sənədlərin xaric edilməsi;
7. Sənədlərin ikinci seçməsi – qeyri-profil və köhnəlmiş sənədlərdən dokomplektovaniya və azad olma məqsədi ilə onun tərkibinin və istifadənin öyrənilməsinin nəticələrinə görə kitabxananın fondunda həyata keçirilən xaricolmalar;
8. Fondun komplektləşdirilməsinə qədər çıxarılan sənədlərin və kartotekanın siyahılarının tərtib edilməsi;
9. Lazımsız sənədlərin fonddan çıxarılması;
10. Fondun kompleklәşdirilməsi yolu ilə yeni sənədlərin əldə edilməsi nəticəsində əlavə komplektləşdirməyə nəzarət [10].

Mövzunun müasir vəziyyəti barəsində danışdıqda qeyd edə bilərik ki, kitabxana resurslarının komplektləşdirilməsi onun formalaşdırılmasının tərkib hissəsi olmaqla bütün avtomatlaşdırılmış kitabxana prosesinin təşkilindən ibarətdir. Kitabxana resurslarının komplektləşdirilməsi və təşkili, oxuculara ədəbiyyat verilişi və tövsiyəsi, kitabxana-biblioqrafiya biliklərinin təbliğinin ənənəvi metodu ilə bərabər, avtomatlaşdırılmış elektron resursların müəyyən edilməsi, uçotu prosesinin həyata keçirilməsi və istifadəçilərə informasiyanın əldə olunması sahəsində özünəxidmətin monumental qaydada təşkili forması hesab edilir [1, S.22].

Müsir dövrün əsas tələbi olaraq, Respublikanın əksər kitabxanaları bütün informasiya mübadiləsini qabaqcıl texnologiyalara əsaslanaraq qurmağı planlaşdırır. Bunun üçün də məlumatların toplanıb saxlanılması, axtarış sistemləri və informasiyaların ötürülmə qaydalarının qabaqcıl olması ilə yanaşı, kitabxana-informasiya və internet istifadəçisinin avtomatlaşdırılmış sistemi vahid formatda olmalıdır.

Müasir mərhələdə avtomatlaşdırılmış kitabxanaların komplektləşdirilməsi istiqamətində: kitabxanaya daxil olan sənədlər (kitab, dövri mətbuat, qəzet, dissertasiya, avtoreferat, CD-ROM və b.) xüsusi proqram əsasında kompüterə daxil edilmiş sənədlərin akt-uçotu həyata keçirilir. Bu kitabxanalar optik və digər tip disklərdə yazılan kitablar, jurnallar və profilə uyğun olan məlumat bazaları ilə komplektləşdirilə bilər.

Bildiyimiz kimi elektron sənədlərin və digər əlaqədar resursların (məsələn: biblioqrafik məlumat bazaları, elektron kataloqlar, web-saytlar və s.) əsas komplektləşdirmə mənbəyi bilavasitə internet resursları hesab edilir [1, S.23].

İstənilən komplektləşdirmə vasitələrindən sənədlərin profilə uyğun olaraq dəqiq seçim etmək birbaşa olaraq, oxucu sorğusunun və tələbatının dərindən öyrənilməsi ilə bağlıdır. İstər ənənəvi, istərsə də elektron kitabxanaların vacib problemlərindən biri əlaqədar kitabxananın profilinə uyğun olan yüksək keyfiyyətli və unikal məzmuna malik olan sənədlərin seçilməsidir.

Avropada bu sahə üzrə tədqiqat işi aparan mütəxəssislərin əsərlərində qeyd edilir ki, komplektləşdirmə üçün çap əsərlərində olduğu kimi elektron nəşrlərin və resursların seçilməsi vacib faktordur. Bu proseslərin həyata keçirilməsində: müraciət (axtarış, istifadə) üçün çoxlu sayda elektron informasiyalar təqdim olunur, onların adları və sayı sürətlə artır. Buna görə də seçmədə səhvlərin olması ehtimalı artır; uzaqlaşdırılmış şəbəkə resursları getdikcə daha çox ikinci növ sənədlərlə təqdim olunur. Məsələn: referatlar, annotasiyalar, tezislər və s. Təcrübələr göstərir ki, referatların çox hissəsi əsasında ilkin nəşrin məzmun keyfiyyətini dəqiq müəyyən etmək çətindir; sürətlə artan elektron resurslar tam şəkildə elektron variantda dərc edilir. Onlar üçün referatlaşdırma metodları və mexanizmi işlənməmişdir [6, S.27].

Müasir dövrdə bu sahə üzrə əsas istiqamətlərin müəyyən edilməsində və kitabxana resurslarının ümumi şəkildə idarə olunmasında komplektləşdiricilərin kitab işləmə keyfiyyəti, indeksləşdirmə məharəti, uçotun aparılması optimallığı əsas götürülür. Kitabxanaçı – komplektləşdiricinin fəaliyyət səmərəliliyi, sənədlərin işlənməsi tezliyi və şifrələnməsi keyfiyyəti, onlari resursunun struktur bölmələrinə məqsədyönlü çatdırılması ilə müəyyənləşir. Kitabxanalarda komplektləşdirmə şöbəsinin işçiləri kollektiv işləmək prinsipinə alışmalı, bütün qarşılıqlı iş proseslərinin monumental yerinə yetirilməsinə nail olmalıdır [2, S.104].

Müasir komplektləşdirilmə prosesi vasitəsilə müxtəlif sayda və dillərdə olan sənədlərin elektron kataloqda öz əksini tapması Milli Kitabxananın anl.az internet portalı vasitəsilə oxucular uzaq məsafədən birbaşa olaraq istədiyi kitab və digər çap məhsullarını asanlıqla əldə etmək imkanı qazandırır. Bütün bunlar Milli Kitabxananın elektron kataloq və kartoteka sistemi ilə birlikdə elektron kitabxanasını formalaşdırmış və digər xarici ölkələrlə birbaşa olaraq internet vasitəsilə elektron qaydada müxtəlif nəşrlərin ixracını və idxalını həyata keçirir.

M.F.Axundov adına Milli Kitabxananın elektron kataloqunda axtrış hər üç dildə (Azərbaycan, ingilis və rus dillərində) aparılır. Ətraflı axtarış zamanı lazım olan hər hansı bir vəsaitin daha dəqiq və asan tapılması üçün müxtəlif altbaşlıqlardan istifadə edilir: kitabların, məqalələrin, dissertasiyaların və digər nəşr növlərinin axtarışı müxtəlif illər üzrə həyata keçirilir. Bütün bu proseslər kitabxananın elektron-informasiya resurslarından istifadənin səmərəli istifadəsinə şərait yaradır [15].

Qeyd etməliyik ki, M.F.Axundov adına Milli Kitabxananın informasiya resurslarının komplektləşdirilməsi və modernləşdirilməsi çoxaspektli və sistemli şəkildə elmi əsaslarla həyata keçirilir. Bütün bu proseslər Milli kitabxananın oxucu kontinigentinin artmasına, elektron kataloq və kartoteka sistemindən səmərəli şəkildə istifadə edilməsinə şərait yaradır. Həmçinin məqalədə M.F.Axundov adına Milli Kitabxananın modernləşdirilməsi prosesinin dinamik inkişafı və komplektləşdirilmə sahəsindəki fəaliyyəti sistemli qaydada şərh edilmişdir.

**Ədəbiyyat**

1. Cəfərov, C. Kitabxana-informasiya xidmətində elektron kataloq. Bakı: Proqres, 2012, 224 s.
2. Həsənov, M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi. Dərs vəsaiti. B.: BDU, 2004, 143s.
3. Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. III hissə. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2010, 432 s.

4. Xələfov, A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissədə.Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 552s.
5. İsmayılov, X. Müasir dövrdə kitabxanaların metodik təminatının bəzi məsələləri // Kitabxanaşünaslıq – biblioqrafiya, 2012, №12, S.9-18.
6. Rüstəmov, Ə. Elektron kitabxanaların komplektləşdirilməsinin bəzi məsələləri / Ə.Rüstəmov, N.Mustafayeva //Kitabxanaşünaslıq, 2006, №1, S.21-31.
7. Tahirov, K. Azərbaycan Milli Kitabxanası - 90: məqalələr məcmuəsi. Bakı, 2013, 152 s.
8. Tahirov, K. Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı. Bakı, 2009, 291 s.
9. Tahirov, K. Azərbaycan Milli Kitabxanası - 90: məqalələr məcmuəsi. Bakı, 2013, 152 s.
10. Столяров, Ю. Библиотечный фонд: учебник. Санкт-Петербург, 2015, 384 с.
11. Столяров, Ю. Развитие библиотечного фондоведения // Российское библиотековедение: XX век. Направления развития, проблемы и итоги. М., 2003, С.279- 296.
12. Хахалева, Н. Формирование библиотечного фонда в электронной среде: концептуальный подход // Библиотековедение, 2006, №3, С.38 - 41.
13. Петрусенко, Т. Особенности и тенденции комплектования фондов РНБ: 1996-2000 гг. / Т.Петрусенко, А.Романов, Н.Тихомирова // Петербургская библиотечная школа, 2001, №2, С.7- 18.
14. Шилов, В. О создании стратегии формирования фондов РНБ: Основные подходы // РНБ – Информация, 2002, №3, Март, С.1-5.
15. www.anl.az

## Современное состояние комплектования республиканских библиотечно-информационных ресурсов

(На основе опыта Национальной библиотеки им. М.Ф.Ахундова)

**Резюме:** *В статье говорится о современном состоянии комплектования информационно-ресурсного комплекса библиотек, существующих в Республике на определенных этапах.*

*Объектом исследования является процесс комплектования проводившегося поэтапно, систематически и теоретически в Национальной библиотеке им. М.Ф.Ахундова. Сперва, кратко дана информация об истории создания библиотеки, затем поэтапно разъясняются процесс комплектования, роль современных информационных коммуникационных технологий в процессе автоматизации.*

**Ключевые слова**: *библиотечное-информационные ресурсы, комплекто-вание, библиотечная технология, современное состояние комплектование*

**Modern situation of library information resources acquisition**

(On the basis of the experience of the National Library named after M.F.Akhundov)

**Abstract:** *The current period in the Republic of information resource complexes defined in the order of set up of the library, based on the modern fundamentals of the foundation. The object of research, The National Library, in M.F.Akhakhundov 's process, in a consistent manner, with a complex of orders and theoretically, was broadly described in the compilation. In the past, all the books, bibliotecks, short stories, history, process and information technologies have been added to the detailed information provided by the bibliotec.*

**Key words:** *document-information resource, acquisition, library technology, modern situation of acquisition*